

# ABŞ Azərbaycanın qlobal enerji məkanındakı rolunu yüksək qiymətləndirir

"ABŞ Prezidenti Cozef Baydenin Bakı Enerji Həftəsi çərçivəsində Prezident İlham Əliyevə məktubu göstərdi ki, Azərbaycan yeni əməkdaşlıq şəbəkəsinin yaradılması ilə artıq qlobal aktor rolunda çıxış edir, digər dövlətlərlə münasibətlərinə üçüncü güclərin müdaxiləsinə imkan verməyəcək qədər qətiyyətli davranış sərgiləyə bilir. Cozef Baydenin sözügedən məktubu özündə bir neçə konseptual məqamı birləşdirir".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, ABŞ Azərbaycanı qlobal aləmdə, xüsusən Avropada enerji təhlükəsizliyinin mühüm sütunu kimi qəbul edir: "Həqiqətən də, ötən dövrün təcrübəsi göstərir ki, Prezident İlham Əliyev Azərbaycanın ənənəvi enerji öhdəliklərinə sadiq qalmaqla, neft hasilatından tədricən qaz istehsalına strateji keçidi uğurla təmin edə bilib. Hazırda Azərbaycan 6-sı Avropa ölkəsi olmaqla, ümumilikdə 8 dövlətə qaz nəql edir.

Müsahibimizin sözlərinə görə, vaxtilə müəyyən dairələrin Azərbaycanın Avropanın artmaqda olan ehtiyaclarını ödəmək üçün kifayət qədər qaz ehtiyatına sahib olmaması barədə ardıcıl şayiələr tirajlamasına baxmayaraq, Prezident İlham Əliyevin formalaşdırdığı konfiqurasiya belə əsassız kampaniyalar seriyasına uğurlu cavabdı. Dövlətimizin başçısının uzaqgörənliklə reallaşdırdığı infrastrukturlar hesabına ölkəmiz bu gün faktiki olaraq Avropa üçün alternativsiz və çox cazibədar enerji təchizatçısı rolunda çıxış edir. Baydenin məktubunda "Xəzər qazının getdikcə çoxsaylı ölkələrə ixrac edilməsi və bunun da Avropa ölkələrinə enerji mənbələrinin şaxələndirilməsinə, kömürdən imtinanın sürətləndirilməsinə yardım etməsinə" dair qənaəti də subyektiv meyarlara yox, məhz obyektiv gerçəkliyə söykənir.

Bəhruz Məhərrəmov söyləyib ki, alternativ enerjiyə diqqətin artdığı, daha doğrusu, bu prosesin qlobal zərurətə çevrildiyi bir dövrdə ABŞ Azərbaycanın qlobal enerji məkanında transformasiyaya yol açan rolunu başa düşür: "Azərbaycan bu sahədə iradə nümayiş etdirir və dövlətimiz gələcəyini neft-qaz sferasında yox, alternativ enerjidə görür. Prezident İlham Əliyevin Serbiya-Bolqarıstan İnterkonnektorunun açılışı zamanı da bəyan etdiyi kimi, bizim əsas hədəfimiz bərpaolunan enerji növləri ilə bağlıdır. Uzun illərdir, regionla xüsusən enerji sahəsində əməkdaşlıq edən Vaşinqton da məsələdən halidir və Azərbaycanın öz enerji tarixində yeni səhifə açarkən təmiz enerji və metan tullantılarının azaldılmasına artan diqqət və sadiqlikdən məmnunluq duyur. Bu ölkənin rəhbərinin məktubda da ifadə etdiyi kimi, "Xəzərin sahib olduğu əhəmiyyətli külək enerjisi potensialı Azərbaycanın təmiz enerji ixracının neft və qaz ixracını üstələyəcək gələcəyə gətirib çıxara bilər".

Müsahibimiz əlavə edib ki, Prezident Bayden haqlı olaraq hesab edir ki, Bakı Enerji Həftəsi və bu çərçivədə 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılışı Azərbaycanın noyabrda həlledici COP29 tədbirinə evsahibliyi etməyə hazırlaşdığı dönəmdə xüsusi əhəmiyyət kəsb edir. ABŞ dövlət başçısının ifadə etdiyi kimi, "Temperatur artımının 1,5 dərəcədə saxlanılması hədəfinə nail olunması istiqamətində birgə işlədiyimiz bir vaxtda COP29 neft və qaz sektorunda metan tullantılarının məhdudlaşdırılması və təmiz enerji keçidinin irəlilədilməsi kimi əsas qlobal təşəbbüslərin inkişafı baxımından Azərbaycan üçün misilsiz imkan təqdim edir".

Deputat ABŞ Prezidenti Baydenin məktubunun digər konseptual istiqamətinin həssas dönəm yaşayan ABŞ-Azərbaycan münasibətlərinin sonrakı dövrü ilə bağlı olduğunu qeyd edib. "Sirr deyil ki, Bakı və Vaşinqton xüsusən ötən ilin sentyabrından etibarən öz münasibətlərinin parlaq dönəmini yaşamır və bir sıra dairələr, o cümlədən ABŞ Dövlət Departamentində, Senat və Nümayəndələr palatasında erməni lobbisinin maliyyə təsirində olan müəyyən rəsmilər münasibətlərimizin korlanmasında maraqlı olduqlarını gizlətmirlər. Lakin Baydenin Bakıya həftə ərzində artıq ikinci məktubunu yollaması o deməkdir ki, Azərbaycan-ABŞ münasibətləri pozulmayıb və bu münasibətləri kölgələməyə çalışan erməni lobbi dairələri ardıcıl cəhdlərinə baxmayaraq, dayanıqlı nəticəyə nail olmayıblar. Əksinə, Bakı adıçəkilən dairələrin səylərinə rəğmən hədəfinə doğru uğurla irəliləyir", - deyə Bəhruz Məhərrəmov vurğulayıb.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.5.